QANUN № 06 (380), 2026, s. 92-97

Mansurov Elnur Xaliq oğlu,
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının
fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail: mansurovvelnur@gmail.com

UOT 347.4
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0148

ŞƏXSİ TƏMİNAT ÜSULLARI KİMİ ZAMİNLİK VƏ QARANTİYANIN BƏZİ CƏHƏTLƏRİ HAQQINDA

Açar sözlər: *öhdəliklərin icrasının təmin edilməsi üsulları, zaminlik, qarantiya, zaminlik müqaviləsi, zamin, qarant, mülki qanunvericilik.*

Ключевые слова: *способы обеспечения исполнения обязательств, поручительство, гарантия, договор поручительства, поручитель, гарант, гражданское законодательство.*

Keywords: *methods of securing the performance of obligations, suretyship, guarantee, surety agreement, surety, guarantor, civil legislation.*

Mülki dövriyyədə müqavilə bağlamaq nə qədər təbiidirsə, həmin müqavilədən və ya digər əsaslardan yaranan öhdəliklərin icra edilməməsi riski də bir o qədər realdır. Məhz bu risklərin mövcudluğu şəraitində kreditorun maraqlarının müdafiə edilməsi məqsədilə mülki qanunvericilik öhdəliklərin icrasının təmin edilməsi üsullarını müəyyənləşdirir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra – AR MM) 460-cı maddəsində sadalanan bu təminat üsulları arasında ikisi – zaminlik və qarantiya mülki hüquq doktrinasında şəxsi təminat müqavilələri kimi qiymətləndirilir. Şəxsi təminat müqavilələrinin əsas mahiyyəti ondan ibarətdir ki, borclunun öhdəliyinə hər hansı bir əmlakla deyil, birbaşa üçüncü şəxs tərəfindən təminat verilir [8, s. 27; 9, s. 779].

Ümumi mahiyyəti öhdəliklərin icra edilməsinə şəxsən təminat verilməsinə yönəlmiş təminat üsulları olan qarantiya və zaminlik ilk baxışda bir-birinə bənzəyən təminat üsulları kimi görünür və təcrübədə tez-tez qarışdırılır. Lakin mülki qanunvericiliyimizdə və mülki hüquq doktrinasında onları bir-birindən fərqləndirən əsas əlamətlər mövcuddur. Sözügedən bu fərqləri təhlil etməzdən öncə, düşünürük ki, zaminlik və qarantiyanın mülki qanunvericiliyimizdə əksini tapmış normativ anlayışlarına toxunsaq, daha məqsədəuyğun olar.

Belə ki, AR MM-in 470.1-ci maddəsində zaminlik müqaviləsinə aşağıdakı kimi anlayış verilir: *"Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür"* [3]. Buradan belə bir nəticə gəlmək olar ki, zaminlik müqaviləsi şəxsi təminat müqaviləsinin bir növü kimi kreditorun maraqlarının müdafiəsi məqsədinə xidmət edən və mülki dövriyyədə öhdəliklərin bu və ya digər səbəblərdən icra edilməməsi riskindən kreditoru qoruyan bir müqavilə növüdür.

Sözügedən təminat üsuluna mahiyyətcə yaxın olan digər təminat üsulu qarantiyadır. Qarantiyanın normativ anlayışı isə AR MM-in 478-ci

maddəsində öz əksini tapır. Belə ki, *"qarantiyaya əsasən qarant (bank, digər kredit təşkilatı və ya sığorta təşkilatı) digər şəxsin (prinsipalın) xahişi ilə prinsipalın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir"* [3]. Normanın məzmunundan da göründüyü kimi, qarantiya öhdəliklərin icrasının şəxsi təminat üsullarından biri olub, yalnız onu vermək səlahiyyətinə (lisenziyasına) malik olan subyektlər tərəfindən verilən təminat xarakterli müstəqil pul öhdəliyidir.

Qanunvericilikdə olduğu kimi, mülki hüquq doktrinasında da qarantiyaya anlayış verilir. H. Tandoğanın fikrincə, *"qarantiya müqaviləsi – qarantın qarantiya alanın müəyyən bir işə (təşəbbüsə) başlaması və ya öhdəlik münasibətinə daxil olduğu halda üçüncü şəxsin (borclunun) öhdəliyini icra etməməsi nəticəsində yarana biləcək zərər riskini öz üzərinə götürdüyü müqavilədir"* [7, s. 809; 8, s. 28]. Bu zaman qarant üçüncü şəxsin, yəni borclunun öhdəliyini icra etmir. Sadəcə onun öz öhdəliyini icra etməməsi halında qarantiya alanın zərərə məruz qalmasının qarşısını alır [6, s. 115, 8, s. 28-29]. Aydın olur ki, zaminlikdə olduğu kimi qarantiyada da əsas məqsəd kreditorun qarşılaşa biləcəyi maliyyə risklərini təminat altına almaqdır. Yəni, borclu şəxs tərəfindən hər hansı səbəbdən öhdəlik icra edilməzsə, bu riskdən kreditoru sığortalamaq (qorumaq) və mülki dövriyyənin sabitliyini təmin etmək bu təminat üsullarının ümumi məğzini ifadə edir.

Bu təminat üsullarının əsas fərqi onların subyekt tərkibinin müxtəlifliyində özünü göstərir. Belə ki, AR MM-in 470-ci maddəsində zaminlik müqaviləsinə verilmiş anlayışdan da bəlli olur ki, zaminlik müqaviləsinin tərəfləri zamin və əsas öhdəlik münasibəti üzrə kreditordur. Borclu şəxsin burada iştirakı isə mütləq deyildir. Buna baxmayaraq, müqavilənin bağlanması ilə əlaqədar borclu şəxs məlumatlandırılmalıdır [1]. Qeyd etmək lazımdır ki, zamin və kreditor rolunda çıxış edə biləcək şəxslər baxımından AR MM-in zaminliyin hüquqi tənzimlənməsinə həsr edilmiş normalarında konkret bir tələb müəyyən edilməmişdir. Lakin qanunvericiliyin ümumi tələblərini nəzərə alaraq, belə qənaətə gəlmək olar ki, mülki hüquq və fəaliyyət qabiliyyətinə malik olan fiziki və hüquqi şəxslər zaminlik münasibətlərinin subyekti ola bilərlər.

Zaminlik üzrə münasibətlərdə olduğu kimi qarantiyada da üçtərəfli münasibət mövcuddur. Lakin zaminlikdən fərqli olaraq, qarantiya üzrə münasibətlərdə qanun xüsusi subyekt tərkibini müəyyənləşdirmişdir. Belə ki, qarant rolunda çıxış edəcək subyektlər yalnız banklar, sığorta təşkilatları və digər kredit təşkilatlarıdır. Dolayısı ilə, bu subyektlərdən başqa heç bir subyektin qarant olmaq səlahiyyəti yoxdur. Bu isə onu deməyə əsas verir ki, qeyd olunan subyektlərdən başqa hər hansı şəxs tərəfindən qarantiya adı ilə verilən təminat üsulu qarantiya hesab edilə bilməz.

Qarantiya və zaminlik arasında digər bir fərqləndirici məqam onların hüquqi xarakteridir. Belə ki, zaminlik müqaviləsi əsasında zaminin öhdəliyi xüsusi xarakterə malikdir. Hüquqi təbiəti etibarilə, zaminlik aksessor, yəni əlavə (yardımçı) xarakterdə olan öhdəlik hesab olunur. Bu o deməkdir ki, zaminlik təminat verdiyi öhdəlikdən (əsas öhdəlikdən) asılıdır. Əsas öhdəliyin xitamı və ya etibarsız sayılması zaminlik öhdəliyinin də xitamına səbəb olacaqdır [2].

Bəzən doktrinada belə bir yanaşma irəli sürülür ki, zamin zaminlik müqaviləsi üzrə borclunun əvəzinə öhdəliyi icra etmir, o öz öhdəliyini icra edir. Yəni zamin borclu şəxsin öz öhdəliyini icra etməməsi halında onun kreditoru qarşısında zaminlik müqaviləsinə əsaslanan öz borcunu icra edir [8, s. 28-29; 9, s. 782]. Fikrimizcə, bu yanaşma düzgündür. Çünki zaminin kreditor qarşısında götürdüyü öhdəlik icra edilməsi

baxımından fərdidir, yəni, əsas öhdəlik icra edilmədiyi halda, zamin öz öhdəliyini müstəqil öhdəlik kimi icra edəcəkdir. Buna baxmayaraq, bu yanaşmanı zaminliyin aksessor xarakteri ilə qarışdırmaq düzgün deyildir. Çünki zaminin öz öhdəliyini müstəqil olaraq icra etməsi, onun heç də müstəqil öhdəlik olması anlamına gəlmir. Belə ki, az əvvəl qeyd etdiyimiz kimi, zaminin öhdəliyi onun təminat verdiyi əsas öhdəliyə bağlıdır. Əsas öhdəlik mövcud olmadığı müddətcə, zaminliyin heç bir əhəmiyyəti olmaz. Başqa sözlə, zaminlik öhdəliyi subyektə aidiyyət və icrası baxımından müstəqildirsə, özü mahiyyət etibarilə əsas öhdəliyə bağlıdır (ondan asılıdır).

Qarantiyada isə əsas öhdəlik münasibəti ilə əlaqə tamamilə fərqlidir. Belə ki, AR MM-in 480-ci maddəsinə əsasən, *"qarantın benefisiar qarşısında qarantiya ilə nəzərdə tutulan öhdəliyi müstəqil öhdəlikdir və icrasının təminatı üçün verildiyi əsas öhdəlikdən, hətta qarantiyada bu öhdəliyə istinad edilsə belə, asılı deyildir"* [3]. Göründüyü kimi, qarantiya, zaminlikdən fərqli olaraq, aksessor (asılı) deyil, müstəqil öhdəlikdir. Burada prinsipal (borclu) və benefisiar (kreditor) arasında mövcud olan əsas öhdəlik münasibəti və benefisiar (kreditor) və qarant arasında olan qarantiya münasibətləri ayrı-ayrı və müstəqil münasibətlərdir. Dolayısı ilə, zaminlikdən fərqli olaraq, əsas öhdəliyin xitamı və ya etibarsızlığı qarantiya öhdəliyinə heç bir təsir göstərməyəcəkdir. Zaminlik müqaviləsində isə, az əvvəl qeyd etdiyimiz kimi, zaminin öhdəliyi əsas öhdəlikdən bilavasitə asılıdır.

Hər iki təminat üsulunu fərqləndirən növbəti xüsusiyyətlərdən biri də onların əvəzsiz olub-olmaması məsələsidir. Doktrinada formalaşmış mövqelərə əsasən, qarantiya müqaviləsi əvəzsiz xarakterdədir və əsas məqsədi öhdəliyin icra edilməməsi riskini təminat altına almaqdır [4, s. 103; 5, s. 425; 6, s. 21; 10, s. 3-4]. Lakin burada bir məsələni qeyd etməyi zəruri hesab edirik. Belə ki, AR MM-nin 479-cu maddəsinə əsasən, "*qarantiya prinsipalın benefisiar qarşısında öhdəliyini (əsas öhdəliyi) lazımınca icra etməsini təmin edir və qarantiya verilməsinə görə prinsipal qaranta şərtləşdirilmiş muzd ödəyir"* [3]. Əslində bu xüsusiyyət qarantiyanın əvəzli olması təəssüratını formalaşdıra bilər. Çünki banklar hər hansı şəxsi müəyyən qarşılıq almaqla maliyyə risklərindən sığortalayırlar. Qarantiyanın əslində qarant və benefisiar arasında yaranan bir öhdəlik münasibəti olduğunu nəzərə alsaq, qarantın qarantiya öhdəliyi üzrə benefisiara pul məbləğini ödəmək öhdəliyinin müqabilində benefisiar tərəfindən bu heç bir cavab xidməti ilə (əvəz ilə) şərtləndirilmir. Yəni benefisiar bunun qarşılığında qaranta hər hansı ödəniş etmir. Burada ödəniş edən tərəf prinsipaldır. Dolayısı ilə, bank, kredit təşkilatı və ya sığorta təşkilatı tərəfindən qarantiya üzrə həyata keçirilən fəaliyyət əvəzli xarakterdədir və bunun qarşılığında həmin subyektlər haqq alırlar. Deməli, belə qənaətə gəlmək mümkündür ki, qarantiyanın verilməsi ilə bağlı prinsipal və qarant arasında yaranan münasibətin əvəzli xarakter daşıması, qarantın benefisiar qarşısında götürdüyü müstəqil qarantiya öhdəliyinin əvəzsiz xarakterini dəyişdirmir. Bu səbəbdən, qarantiyanın əvəzsizliyi dedikdə, qarant və benefisiar arasındakı münasibət nəzərdə tutulmalıdır. Prinsipal tərəfindən qaranta muzd ödənilməsi isə ayrıca hüquq münasibətindən irəli gələn və qarantiyanın təminat funksiyasının həyata keçirilməsi ilə bağlıdır.

Zaminlik müqaviləsi üzrə borclu zaminə hər hansı qarşılıq (əvəz) ödəmir və bu onun əvəzsiz xarakterdə olduğunu göstərir. Buna baxmayaraq, AR MM-in 473-cü maddəsində qeyd edilir ki, *"əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, zaminin borcluya göstərdiyi xidmətlər üçün muzd almaq hüququ vardır"* [3]. Dolayısı ilə dispozitiv xarakterə malik olan bu normada zaminin qanuna əsaslanan muzd almaq hüququ təsbit edilmişdir. Bu hüququn tətbiqi ilə yalnız

müqavilə ilə istisna edilə bilər. Təcrübədə isə zaminlik kommersiya yönümlü fəaliyyət hesab olunmur. Bu daha çox etimad (güvən), yaxınlıq və ailəvi münasibətlərə əsaslanır. Buna baxmayaraq, zamin öhdəliyi icra etdikdən sonra kreditora ödədiklərini reqres qaydasında borcludan almaq imkanına malikdir.

Qarantiya və zaminliyi bir-birindən fərqləndirən digər bir xüsusiyyət zaminin və qarantın məsuliyyətinin hüquqi xarakteridir. Məlum olduğu kimi, mülki qanunvericiliyimizdə zaminin iki əsas məsuliyyət forması təsbit edilmişdir. Belə ki, AR MM-in 472.1-ci maddəsinə əsasən, *"borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar"* [3]. Göründüyü kimi zaminin əsas məsuliyyət formaları həm birgə (solidar), həm də əlavə (subsidiar) xarakterdədir. Subsidiar məsuliyyət formasının tətbiqi yalnız qanunda bu barədə qəti göstəriş olduğu halda və ya müqavilədə şərtləşdirildiyi halda mümkündür. Əks halda, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyır. Subsidiar məsuliyyətin mahiyyəti ondan ibarətdir ki, kreditor əsas öhdəliyin icra edilməsi tələbini zaminə irəli sürməzdən əvvəl borcluya qarşı irəli sürməlidir. Əgər borclu tərəfindən öhdəlik icra edilmirsə ya onun icrası mümkün deyildirsə, bu halda tələb zaminə yönəldilir və zamin kreditor qarşısında məsuliyyət daşıyır. Birgə (solidar) məsuliyyət formasında isə, kreditor əsas öhdəliyin icrasını həm zamindən, həm əsas borcludan, həm də onların hər ikisindən tələb edə bilər [1].

Qarantiya üzrə isə qarantın məsuliyyət forması bir qədər fərqlidir. Belə ki, AR MM-in 487.1-ci maddəsinə əsasən, *"qarantın benefisiar qarşısında qarantiyada nəzərdə tutulan öhdəliyi qarantiya verilmiş məbləğin ödənilməsi ilə məhdudlaşır"*. Eyni zamanda, həmin məcəllənin 487.2-ci maddəsinə əsasən, *"qarantın qarantiya üzrə öhdəliyi yerinə yetirməməsi və ya lazımınca yerinə yetirməməsi üçün benefisiar qarşısında məsuliyyəti, əgər qarantiyada ayrı hal nəzərdə tutulmayıbsa, qarantiya verilmiş məbləğlə məhdudlaşmır"* [3]. Göründüyü kimi, zaminlikdən fərqli olaraq, qarantiyada qarantın xüsusi məsuliyyət formaları mövcud deyildir. Ona görə ki, qarantiya üzrə hüquq münasibətinin xarakteri zaminlik üzrə hüquq münasibətinin xarakterindən tamamilə fərqlidir. Qarantiya öhdəliyi müstəqil olduğu üçün qarantın məsuliyyəti də fərdi və müstəqil xarakter daşıyır.

Qarantiyanın digər xüsusiyyəti onun geri götürülə bilməyən öhdəlik olmasıdır. Belə ki, AR MM-in 481-ci maddəsinə əsasən, *"əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, o, qarant tərəfindən geri götürülə bilməz"* [3]. Bu o anlama gəlir ki, qarantiya verildikdən sonra qarant üzərinə götürdüyü öhdəlikdən bu və ya digər səbəbdən imtina edə bilməz. Bu qaydadan istisna yalnız qarantiyanın özündə göstərilən şərtlə mümkündür. Yəni, qarant qarantiya sənədində onun geri götürülə bilməsinə dair hər hansı şərt təsbit etmişdirsə, bu halda qarantiya öhdəliyi geri götürülə bilər.

Təcrübədə zaminlik də geri götürülməyən öhdəlik hesab olunur [11, s. 97]. Yəni müqavilə bağlandıqdan sonra zamin hər hansı səbəb irəli sürərək götürdüyü öhdəlikdən imtina edə bilməz. Lakin bu barədə mülki qanunvericiliyimizin zaminliyə aid normalarında konkret göstəriş nəzərdə tutulmamışdır. Praktiki olaraq, bu əslində onunla əsaslandırıla bilər ki, zaminlik şəxsi-mənəvi əlaqələrə əsaslanaraq qurulan bir təminat üsulu olduğu üçün və digər tərəfdən məhz zaminlər də borclu tərəfindən dəvət olunan şəxslər olduqlarına və daxil olacaqları münasibətin mahiyyətini, öz məsuliyyətlərini və öhdəliklərini öncədən bildikləri üçün sonradan hər hansı səbəb irəli sürməklə götürdükləri öhdəlikdən imtina edə bilməzlər.

Qarantiyanın digər bir xüsusiyyəti isə kreditorun (benefisiarın) qaranta qarşı tələb hüququnun başqa şəxslərə verilə bilməməsidir. Ümumi qayda olaraq, AR MM-in 194-cü maddəsinə görə, *"tələb sahibi (kreditor) borclunun razılığı olmadan tələbi üçüncü şəxsə güzəşt edə bilər (tələbin güzəşti), bu şərtlə ki, həmin güzəşt öhdəliyin mahiyyətinə, onun borclu ilə razılaşmasına və ya qanunvericiliyə zidd olmasın. Güzəştin yolverilməzliyi barədə borclu ilə razılaşma yalnız borclunun üzrlü mənafeyi olduqda mümkündür"* [3].

Lakin qarantiya üzrə qanunverici bu ümumi qaydadan fərqlənən xüsusi bir rejim formalaşdırmışdır. Belə ki, AR MM-in 482-ci maddəsinə əsasən, *"əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, qarantiya üzrə benefisiara mənsub olan, qaranta qarşı tələb irəli sürmək hüququ başqa şəxsə verilə bilməz"* [3]. Göründüyü kimi, bir qayda olaraq, qarantiya üzrə benefisiarın (kreditorun) tələb hüququnun üçüncü şəxslərə güzəşt edilməsi (sessiya) yolverilməzdir. Qanunvericiliyin dispozitiv xarakterə malik olan bu normasında qeyd olunan qayda yalnız tərəflərin razılaşması ilə dəyişdirilə bilər.

Zaminlikdə isə kreditorun tələb hüququnun başqa şəxsə güzəşt edilməsi mümkündür və bu hal onun xitamı üçün əsas hesab edilə bilməz. Başqa sözlə, zaminlikdə kreditorların dəyişməsi zaminliyin hüquqi qüvvəsinə heç bir təsir göstərməyəcəkdir. Lakin AR MM-in 477.0.2-ci maddəsinə əsasən, zaminin razılığı olmadan borclu şəxsin dəyişdirilməsi və zaminliklə təmin edilmiş öhdəlik üzrə borcun başqa şəxsə keçirilməsi zaminliyin xitamı üçün əsaslardan biri hesab edilir.

Yekun olaraq qeyd etmək olar ki, zaminlik və qarantiyanın hər ikisinin öhdəliklərin icrasının şəxsi təminat üsullarına aid edilməsinə baxmayaraq, hüquqi təbiəti fərqlidir. Hər iki təminat üsulu bir-birindən hüquqi xarakterinə, subyekt tərkibinə, məsuliyyət formasına və digər amillərə görə fərqləndirilir. Əgər zaminlik əsas öhdəlikdən asılıdırsa (aksessor xarakterdədirsə), qeyri-kommersiya xarakterlidirsə və daha çox şəxsi əlaqələrə əsaslanırsa, qarantiya əsas öhdəlikdən asılı olmayan, xüsusi subyekt tərkibinə malik olan müstəqil təminat üsulu kimi çıxış edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1, 470.2 və 471-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı // 4 sentyabr 2012-ci il tarixində qəbul edilmişdir: [Elektron resurs]. URL: https://www.constcourt.gov.az/az/decision/243

2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı // 4 iyun 2018-ci il tarixində qəbul edilmişdir. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/39349

3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // 28 dekabr 1999-cu il tarixində qəbul edilmişdir: [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46944

4. Atasoy, K. Garanti sözleşmesinin türleri, hukuki özellikleri ve sonuçları // Anadolu Üniversitesi Hukuk Fakültesi Dergisi. – 2019. – C. 5, № 1. – s. 101–134.

5. Çınar, G. Garanti ve kefalet sözleşmeleri arasındaki ayrım // Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi. – 2020. – C. 69, № 2. – s. 419–442.

6. Reisoğlu, S. Garanti Mukavelesi / S. Reisoğlu. – Ankara: Ankara Üniversitesi Hukuk Fakültesi Yayınları, – 1963. – 180 s.

7. Tandoğan, H. Borçlar Hukuku Özel Borç İlişkileri / H. Tandoğan. – Ankara: Banka ve Ticaret Hukuku Araştırma Enstitüsü Yayınları, – Cilt II. – 3. Bası. – 1985.

8. Turan, G. Garanti ve kefalet sözleşmeleri arasındaki farklar ve banka kredi kartı sözleşmelerindeki şahsi teminatın niteliği // Türkiye Barolar Birliği Dergisi. – 2006. – Sayı 66. – s. 27–50.

9. Yavuz, C. Türk Borçlar Hukuku Özel Hükümler / C. Yavuz. – İstanbul: Beta Yayınları, – 5. Bası. – 1997. – 1058 s.

10. Stammler, R. Der Garantiervertrag // Archiv für die civilistische Praxis. – Tübingen: Mohr Siebeck, – 1886. – Bd. 69. – S. 1–141.

11. Российское гражданское право: учебник: в 2 т. / отв. ред. Е.А. Суханов. – 2-е изд., стер. – Москва: Статут, – т. II: Обязательственное право. – 2011. – 1208 с.

Мансуров Эльнур Халиг оглу,
докторант по программе подготовки доктора философии (PhD)
кафедры гражданского права юридического факультета
Бакинского государственного университета

О НЕКОТОРЫХ АСПЕКТАХ ПОРУЧИТЕЛЬСТВА И ГАРАНТИИ КАК ЛИЧНЫХ СПОСОБОВ ОБЕСПЕЧЕНИЯ ОБЯЗАТЕЛЬСТВ

РЕЗЮМЕ

В статье исследуются некоторые аспекты правового регулирования гарантии и поручительства как личных способов обеспечения исполнения обязательств в гражданском праве Азербайджанской Республики. Наряду с этим анализируются функции гарантии и поручительства в обеспечении исполнения обязательств, а также их основные характеристики. В заключении статьи обобщаются полученные результаты и представляются окончательные научно-теоретические выводы по теме.

Mansurov Elnur Khalig,
PhD Candidate at the Department of Civil Law,
Faculty of Law, Baku State University.

ON CERTAIN ASPECTS OF SURETYSHIP AND GUARANTEE AS PERSONAL METHODS OF SECURING OBLIGATIONS

SUMMARY

The article examines certain aspects of the legal regulation of guarantee and suretyship as personal methods of securing the performance of obligations in the civil law of the Republic of Azerbaijan. In addition, it analyzes the functions of guarantee and suretyship in ensuring the performance of obligations, as well as their main characteristics. The article concludes with a summary of the findings and presents the final scientific and theoretical conclusions on the subject.

Redaksiyaya daxilolma tarixi: 01.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 16.06.2026
Çapa qəbul olunma tarixi: 17.06.2026